Bank Respublika
sizə faydalı

**01.10.2023-cü il tarixli Kompleks**
**Bank Xidmətləri Müqaviləsinə**
**4 saylı əlavə razılaşma**

1. 01.10.2023-cü il tarixli, https://www.bankrespublika.az/az/pages/kompleks-bank-xidmeti-muqavilesi_1310 internet saytında yerləşdirilən, Fiziki şəxslər və fərdi sahibkarlar üçün nəzərdə tutulan Kompleks Bank Xidmətləri Müqaviləsinə **("Müqavilə")** aşağıdakı qaydada dəyişiklik edilsin:

   1.1 Müqavilənin 11.6.3.3-cü yarımbəndi aşağıdakı redaksiyada verilsin :

   Borcalan sahibkarlıq subyekti olduqda, Bankın fəaliyyət növünü və kreditin verilməsi üçün Bankın sərf etdiyi resursların (vaxt, işçi qüvvəsi, maliyyə vəsaiti, ehtiyatların yaradılması və s.) effektiv idarəetməsini nəzərə alaraq, Borcalan borcu tam həcmdə və ya qismən ödəniş edərək vaxtından əvvəl qaytardıqda Bank aşağıdakı məbləğlərdə komissiya haqqının ödənilməsini tələb edə bilər:

   1.2 Müqavilənin 11.6.3.3.2-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

   "11.6.3.3.2. Kiçik, orta və iri sahibkarlara verilən kreditlər üzrə (aqro kreditlər daxil deyil):

   a. Əsas borc üzrə vaxtından əvvəl qismən ödəniş edildikdə - edilən ödəniş kredit üzrə qalıq əsas borcun neçə faizini təşkil edirsə, cari ödəniş cədvəli üzrə (silinmədən öncəki ödəniş cədvəli) növbəti 2 (iki) ayın faiz məbləğlərinin cəminin həmin faizi qədər;
   b. Əsas borc tam ödənildikdə - aşağıdakılardan daha aşağı olan məbləği:
      b-1. Müddətin sonunadək ödəniş cədvəlində göstərilmiş və ödənilməmiş bütün faiz məbləğləri; və ya
      b-2. Ödəniş cədvəlində olan (silinmədən öncəki ödəniş cədvəli) növbəti 2 (iki) ayın faiz borcu."

   1.3 Müqaviləyə aşağıdakı məzmunda 11.6.1.11-ci yarımbənd əlavə edilsin:

   *"Kredit xəttinə vaxtından əvvəl xitam verildikdə, açılmış kredit xəttinin 2%-i miqdarında komissiya haqqı banka ödəniləcəkdir ".*

   1.4 Müqaviləyə aşağıdakı məzmunda 12.10.1-ci yarımbənd əlavə edilsin:

   *"Qarantiyanın verilməsinə görə muzdun ödənilməsi qaydası : Qarantiyaya vaxtından əvvəl xitam barədə tələb gəldikdə tərəflərin razılaşması ilə ayrı qayda müəyyən edilə bilər."*
2. Müqavilənin digər müddəaları dəyişdirilmədən saxlanılır və olduğu kimi öz hüquqi qüvvəsini saxlayır.
3. Bu Əlavə razılaşma 20.08.2024-cü il tarixindən etibarən qüvvəyə minir.